Ədəbiyyat qəzeti

32 13 fevral 2021-ci il

# Mövlud TEYMUR - 70



Hörmətli Mövlud müəllim!

Sizi - istedadlı şairimizi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ötən əsrin 70-ci illərində ədəbiyyata gəlmisiniz. İlk mətbu şeiriniz 1972-ci ildə işıq üzü görmüşdür. Sonra şeirləriniz qəzet və jurnallarda, ədəbi toplularda dərc olunmuş və oxucular tərəfindən maraqla qarşılanmışdır. Şeirlərinizdə dostluq, Vətənə, torpağa, ata-baba yurduna məhəbbət hissi tərənnüm olunur. "Yazıçı" nəşriyyatı tərəfindən "Bir sözüm var" adlı ilk şeirlər kitabınız nəşr olunmuşdur. Qarabağ mövzusunda "Qarabağ bizimdir", Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı "Ağ atlı xilaskar", "Tarixlərdə qalacaq", Azərbaycanın söz ustaları Rəsul Rzanın, Nigar Rəfibəylinin həyat və yaradıcılığından bəhs edən "Rəsul Rza demişkən" və s. kitablarınız çap olunmuşdur. "İsti adamlar", "Ürək yanğısı", "İsmayıllı dağları", "Yaxşı adamlar" kimi kitablarınızın da taleyi uğurlu olmuşdur. "Çox sevirəm anamı", "Qar bərəkətdir" şeir kitablarınız balaca oxucuların sevimli kitablarıdır.

1978-ci ildə ADPİ-nin filologiya fakültəsini bitirmisiniz. Uzun illər İsmayıllıda müəllim işləmisiniz. 1981-ci ildə Bakıya gəlmiş, burada müxtəlif işlərdə işləmisiniz. Hazırda doğma bölgədə yaşayıb-yaradırsınız

Ədəbi uğurlarınız beynəlxalq Rəsul Rza mükafatı, bir neçə diplomla dəyərləndirilmişdir.

Hörmətli Mövlud müəllim!

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə cansağlığı, uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*